Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliy

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Disney və onun dostları
# Uolt Disney - 115

**Bakı – 2016**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**Redaktor və**
**buraxılışa məsul:** **Şəhla Qəmbərova**

**Disney və onun dostları: Vəsait bu il yubileyi qeyd olunan Uolt Disney haqqındadır /tərt. ed. N.Məcidova; red. və burax. məsul Qəmbərova Ş.; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016. - 25 s.**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016**

Tərtibçi

Bu vəsaiti hazırlamaqda məqsədimiz Cizgi filmlərinin yaradıcısı kimi tanıdığımız Uolt Disneyin anadan olmasının 115 illik yubileyi münasibətilə keçirilə biləcək tədbirlərlə sizləri tanış etməkdir. Vəsait rejissorun həyat və yaradıcılığından, yubileyi münasibəti ilə keçirilən tədbirlərdən – sərgi, guşə, slaydların hazırlanmasından, adı ilə bağlı məşhur Disneyland parkı haqqında ədəbi-bədii gecədən bəhs edir.

Uolt Disney 5 dekabr 1901-ci ildə Çikaqoda irland, ingilis və alman əsilli çox kasıb bir ailədə dünyaya göz açmışdır. 1919-cu ildən etibarən Kanzas Siti şəhərində karikatura rəssamı işləyən Disney daha sonralar reklam kampaniyasına daxil olmuş və burada Y. Ayverksomla birgə işləməyə başlamışdır. Onlar bir yerdə Disneyin məşhur qəhrəmanlarının hazırlanması ilə məşğul olmuş, rəsm karikaturaları çəkərək "Gülməyin qramı" adlı filmini yaratmışlar. Bu formada onların ilk reklam çarxları meydana gəlmişdir. Özünün çox da böyük olmayan "Laf-o qramz" adlı şəxsi kompaniyasını yaratmış Uolt Disney, bu işi başlayarkən çox böyük vəsait sərf etməsə də, işini uşaqları sevərəkdən həyata keçirirdi. Ona görədə çox kasıb bir ailədə dünyaya göz açsada uşaqlar onu çox sevirdilər.. onun çəkdiyi rəsmlərdən, nağıl filmlərindən ibarət olan *"Göyçək Fatma", "Qırmızı papaq", "Çəkməli pişik"* və başqa nağıllardan götürülmüş, iki hissədən ibarət olan cizgi filminə bənzəyən "Alisa möcüzələr ölkəsində" adlanan ilk cizgi filmi ona bu sahədə böyük şöhrət gətirmişdi.

## Mikki Maus və onun dostları

Sonralar Disneyin *"Dəlicəsinə təyyarə"* adlı yaratdığı digər bir filmində onun yeni personaj olan **Mikki Maus** siçanı meydana çıxır və böyük maraq döğurur. Bu tipli ilk cizgi filmi 1928-ci ildə yaradılır. Bəs Mikki Maus siçanı yaratmaq fikri onda necə yaranmışdır?



Bir gün emalatxanasında dalğın-dalğın gələcəyini düşünərək, rəsm çəkməklə məşğul olan Disney birdən yanında nəyinsə hərəkət edərək səs saldığını eşidir və başını sola doğru çevirərək, taxçanın üzərində kiçik bir siçanı görür. Disney işini saxlayıb bu siçanı seyr etməyə başlayır. Siçan sanki rəqs edirmiş kimi qəribə hərəkətlər edirdi. Zaman keçdikcə Disneylə siçanın dostluğu istiləşir və Disney siçanın qəribə hərəkətlərini rəsmə köçürmək fikrinə düşür. Beləcə çəkdiyi bu rəsm heç fərqində olmadan Uolt Disneyi cizgi filmi kralına çevirir. Qəhrəmanların içərisində Mikki Maus həmişə istifadə edilən personajlara çevrilir və 1932-ci ildə Disney, Mikki Maus personajının yaradılmasına görə "Oskar" mükafatına layiq görülür. Beləliklə XX əsrin 30-cu illərinin əvvəllərində Disneyin rəssamlıq metodları inkişaf edir. Xüsusən heyvanlar üzərində yaradılan personajlar daha çox maraq obyektinə çevrilir.

**1933-cü ildə isə Disney ilk dəfə olaraq dünyada rəngli cizgi filmini yaradır. Onun xüsusi uğuru isə “Üç donuz balası” adlı filminə görə olur. İngilis nağıllarının motivləri əsasında hazırlanan bu film ona yenidən 1933-cü ildə Oskar mükafatı qazandırırır.**




“**Ağbəniz və yeddi cırtdan**” adlı filmilə isə Disney ilk dəfə olaraq yarım metrajlı filmə müraciət edir. Bu film 1937-ci ildə istehsal olunmuş ***“Walt Disney Pictures”*** studiyası tərəfindən istehsal edilmiş Disneyin ilk klassik qısametrajlı cizgi film sayılır. Cizgi filmi Qrimm qardaşlarının eyniadlı əsəri əsasında hazırlanmışdır.

Bu filmin ssenarisinə görə isə o, 1938-ci ildə Venesiyada keçirilən Beynəlxalq film festivalının mükafatı ilə təltif edilir. İkinci dünya müharibəsindən sonra isə, yaratdığı studiya artıq sifariş edilmiş filmlər çəkməyə başlayır. Bu filmlər:

*1950-ci ildə Venesiya Beynəlxalq festivalının mükafatçısı olmuş “Göyçək Fatma”*

*1951-ci ildə “Alisa möcüzələr ölkəsində”*

*1953-cü ildə “Piter Pen”*

*1955-ci ildə “Xanım və avara”*

*1959-cu ildə “Yatmış gözəl”*

*1961-ci ildə “Yüz bir dalmatin”*

1964-cü ildə əsasən aktyor və cizgilərin köməyi ilə yaradılmış “Meri Poppins”

“Cəngəllik kitabı” filmi isə 1967-ci ildə Disneyin ölümündən sonra bitirilmişdir

Öz işlərinə görə Disney 29 Oskar mükafatı almışdır. Disneyin bütün bunlarla yanaşı bir çox filmləri var idi ki,

onlar da 30-cu illərin ortalarından təkrar tamaşaçılara göstərilirdi.

"Snow White and the Seven Dwarfs" cizgi filmi Disneyin ilk uzunmetrajlı cizgi filmi olur. Amma bu filmi istehsal etməsi az qala onun studiyasını müflis edir.Yalnız bankdan aldığı kredit vasitəsi ilə Disney filmi tamamlaya bilir və 1937-ci ildə filmin premyerası ayaqüstü alqışlarla qarşılanır. Bu filmin uğuru Disneyə Kaliforniyanın Burbank şəhərində Uolt Disney studiyası yaratmasına səbəb olur və 1940-cı ildə "Pinokio və Fantaziya" cizgi filmi ekranlara çıxır. Amma təəssüf ki, nə studiyanın yaradılması, nə də yeni cizgi filmi maliyə baxımından uğurlu olmur və "Dumbo" cizgi filminin çəkilişləri zamanı Disneyin işçiləri tətil etdikdə, Uolt Disney daha da çox maliyə böhranı yaşamalı olur. Nəhayət onun az büdcəli "Dumbo" filmi ekranlara çıxır və film həqiqətən də böyük gəlir gətirir.

1940-cı ildə Amerika 2-ci Dünya Müharibəsinə qoşulduqda federal hökumət Disney studiyasından təşviqat xaraketerli müharibə filmləri istehsal etməsini istəyir. Sadəcə səhnədə ideyalarını həyata keçirməklə kifayətlənməyən Disney diqqətini dünyanın ilk əyləncə parklarından olan Disney əyləncə parkını planlaşdırmağa və inşa etdirməyə yönəldir.

Disneylənddə aktyorlar cizgi filmlərindəki obrazlar kimi geyinir, onlar kimi hərəkət edir. Disneylənd ailələrin cizgi filmləri dünyasına səyahət edə, maraqlı anlar yaşaya bilmələri üçün macaralı cizgi dünyasından ibarət olur. Ən əsası o idi ki, Disney parkın ətrafında dəmir yolu çəkilməsini istəyirdi. Disneyin böyük əyləncələrindən biri qızını və dostlarını miniatür Karolvud qatarında gəzdirmək idi.1946-cı ildə Disney şöhrətli sürrealist rəssam Salvador Dali ilə birləşərək eksperimental animasion film üzərində işləyir. Şirkət növbəti dəfə maliyə böhranına uğradıqda isə filmin çəkilişləri təxirə salınır.

Sonralar filmin üzərində yenidən işlənilir və animasion cizgi filminin olduqca gözəl alınması keçmişdə onun klassik nağılları interpritasiya etməsini tənqid edənlərə layiqli cavab olur. Amma "Yatan Gözəl" və "Sinderella" cizgi filmləri uşaqlar üçün zəmanəmizin ən yaxşı filmlər siyahısına daxildir.

Uolt Disneyin çəkdiyi klassik cizgi filmləri musiqisi və bədiiliyinə görə heç vaxt yeniliyini itirmir.

1964-cü ildə studiyanın yeni istehsalı, bədii film və cizgi filminin kombinasiyası olan "Mary Poppins" filmi studiyaya ən böyük nailiyyətini qazandırır. İki il sonra siqaret çox çəkən Uolt Disney ağcıyər xərçənginə yoluxur və 65 yaşında vəfat edir.

Bir tərbiyə müəssisəsi olaraq kitabxanada məktəbyaşlı uşaqların kitabxanaya cəlb edilməsi işində cizgi filmlərinin, animasiyaların nümayişinin də müsbət rolu vardır. Uşaqlar üçün nəzərdə tutulan kino sənətinin əsas növlərindən biri olan cizgi filmləri kinomatoqrafiyanın ana xəttindən biri olaraq gerçəkliyi əks etdirmənin xüsusi bədii şərtilik forması olaraq fantastik hadisə və əhvalatların təsviri üçün özünə məxsus ifadə vasitələrindən sayılır. Kinonun bu növlərinin təsiri ilə uşaqlar gülür, sevinir, ağlayırlar. Cizgi filmlərinin uşaqlara daha maraqlı olduğunu nəzərə alaraq bu il yubileyi qeyd edilən Uolt Disneyin anadan olmasının 115 illiyi (1901-1966) ilə əlaqədər kitabxanada "Cizgi filmləri" həftəsi keçirmək müsbət nəticələr verər.

## Cizgi filmi həftəsi:

**Uolt Disney də məhz cizgi filmlərinin yaradıcısı kimi məşhur olduğundan onu ssenari müəllifi olduğu cizgi filmləri ilə uşaqlara tanıtmaq daha səmərəli olardı. Bu işin təşkilində oxucuları məlumatlandırmaq üçün təyin edilmiş tarixlərdə cizgi filmləri həftəsinin keçiriləcəyi haqqında, kitabxananın facebook səhifəsində elan yerləşdirilir.**




**Uşaqların daha çox hansı cizgi filminə baxmaq istədiklərini öyrənib onların istəyi ilə nünmayiş ediləcək filmləri seçirik.**

## Sərgilər:

**Kitabxanalarda sərgilərin təşkili əyani təbliğat forması-nın ən geniş yayılmış üsuludur. Sərgilər həcminə, tərtibat texnikasına və müddətinə görə bir-birindən fərqləndirilir. Bir və ya bir neçə lövhədə, stenddə yerləşdirilən sərgilər əsasən baxılmaq üçün təşkil olunduğundan, onun tərtibi məsələlərinin böyük əhəmiyyəti vardır. Burada mətn və təsvir materialları bir-birini tamamlamalıdır. Müasir sərgi fəaliyyətində aparıcı tendensiyalar dizayn işinin işlənib hazırlanmasıdır. Sərgini "Cizgi filmləri ustası Uolt Disney", "Uolt Disney - 115" başlığı ilə təşkil edə bilərik. Stendlər şəklində olan sərgidə müəllifin kitablar, qəzet və jurnal nəşrlərini yerləşdiririk. Aşağıda bu kitablardan nümunələr veririk:**


















**Kompleks kitabxana sərgilərindən biri də, müxtəlif xüsusiyyətli fonoqramların köməyi ilə tərtib olunmuş "danışan kitab sərgiləri", video filmlər təqdim etməklə hazırlanan sərgilərdir. Sərgini "***Disneyin Cizgi filmləri qəhrəmanları***" başlığı ilə verilir.**

**Bu sərgidə Disney studiyasının hazırladığı cizgi filmlərindən ibarət CD diskləri nümayiş edilir.**

# Foto sərgi:













## Guşə

Sərgiyə nisbətən daha geniş və əhatəli olan guşələr metodiki tövsiyyə baxımından əhəmiyyətlidir. Belə ki, guşədə əlavə olaraq kartoteka, qəzet, jurnal materialları, tövsiyə ədəbiyyat siyahıları, mövzuya uyğun bir sıra sənədlər və şəkillər də öz əksini tapır. Guşələrin təşkilində əsas məqsəd oxucuya axtardığı materialları asanlıqla tapmaqda kömək etməkdən ibarətdir. Rus dilində tövsiyə xarakterli nəşr olan “ Учим Английский с героями дисней” seriyalı nəşrlər bu baxımdan maraqlıdır. Burada Disneyin nağıl qəhrəmanlarının dilindən uşaqlar üçün müxtəlif əyləncəli oyunlar, testlər, düşündürücü suallar, məlumatlar, hazırlanmışdır.



Cizgi filmləri həftəsi kiçikyaşlı məktəblilər üçün viktorinalar, cizgi filmlərinin nümayişi ilə nağılların ucadan oxusu ilə seçilir. Kitabxanaçı uşaqlarla yubilyarın necə bu qədər şöhrət tapması haqqında söhbət edir

“Siçanları oynadaraq milyonçu olan adam” kimi tanınan Uolt Disney 5 dekabr 1901-ci ildə Çikaqoda yoxsul bir ailədə dünyaya göz açır. Uşaqlıq dövrünü ehtiyac içərisində keçirən Disney, yeniyetmə ikən hər gün səhər tezdən durub, qapı-qapı dolaşaraq qəzet paylayardı. Fəqət bu işindən qazandığı pul çəkdiyi əziyyətin müqabilində çox-çox az idi. Daha ciddi bir iş axtarmaq niyyətiylə üz tutduğu hər bir qapı təhsilinin olmaması səbəbiylə üzünə bağlanırdı. Düzdür, təhsil ala bilməsə də, onun kitablara çox böyük sevgisi var idi. Günlərin birində yenə Çikaqo küçələrində iş axtararkən yol kənarındakı bir kitab köşkünə yan alır. Kitablara göz gəzdirərək: “Pulum olsaydı, bunların hamısını alıb, oxuyardım”, - deyə düşünərək, yalnız birini almaqla kifayətlənməli olur. O, aldığı kitabın arxasında “Kanzas Siti Sənət İnstitutu sizi ödənişsiz kurslara dəvət edir” başlıqlı yazılı bir elanla rastlaşır. Uolt bu elanın sayəsidə 1918-ci ildə Kanzas Siti Sənət İnstitutunun kurslarına qatılır və kursda gələcək məsləkdaşı olan Ub İverkslə dostlaşır.

Kursu bitirdikdən sonra 2 dost özlərinə aid bir cizgi filmi şirkəti qururlar. Lakin, hər şey gözlədikləri kimi alınmır və birgə qurduqları şirkəti bağlamaq məcburiyyətində qalırlar.

Bir müddətdən sonra Uolt Disney, qardaşı Roy Disney və Ub İverks Hollivudda üçü bir araya gələrək güclərini birləşdirirlər. *“Alis cizgi filmi diyarında”* adlı cizgi filmini çəkirlər, amma uğur qazanmırlar. Sonra “Dovşan Osvald” adlı başqa bir cizgi filmi çəkirlər, yenə də uğurlu alınmır. Uğursuzluğun uğursuzluq ardınca gəldiyini görən Uolt Disney pərişan halda Çikaqoya dönür. Burada o, rəsm

çəkib küçələrdə satmağı qərara alır. Və bu məqsədlə evinin arxasındakı anbarı emalatxana kimi istifadə etməyə başlayır.

Beləliklə, Uolt öz rəsmləri ilə yenidən Hollivuda - qardaşı Roy və dostu Ub İverksin yanına qayıdır. Üçü bir arada *"Disney Company"* şirkətini qurmağı qərara alırlar. İlk işləri əsas personajı Disneyin sevimli siçanı – Mikki Maus olan *"Uillinin buxarlı qayığı"* adlı cizgi filmini çəkmək olur. Bu filmə qədər çəkilən cizgi filmləri səssiz çəkilirdi, lakin Uolt Disneyin təkidi ilə bu cizgi filmində ilk dəfə olaraq səsin sinxronlaşdırma texnologiyasından istifadə edilir.

Disneyin arzusu gerçəkləşir, *"Uillinin buxarlı qayığı"* bütün seyr rekodlarını vurur. Sonrakı illərdə sərvətinin hamısını rəngli, səsli, altı saatlıq - dünyanın ilk uzun cizgi filminə yatırmağa qərar verir. Film tam üç ilə çəkilir. Filmin məsrəfi 1,5 mln dolları aşmağa başlayınca Disneyin şirkəti iflasın astanasına gəlir. Beləcə dünyanın ilk bahalı cizgi filmi - *"Ağcaxanım və yeddi cırtdan"* ərsəyə gəlir. Bu cizgi filmi Disneyə tam 8 mln dollar qazandırır.
Mikki Maus, Donald Dakk, Dippi, Pinokio kimi personajları ilə milyonlarca insanın könlünü fəth edən Uolt Disneyi - dünənə qədər heç kəsin tanımadığı bu adamı bu gün hamı tanımaq istəyirdi. Reklamçılardan tutmuş, geyim-oyuncaq fabriklərinin sahiblərinədək hər kəs onun qəhrəmanlarının şəkillərindən istifadə etmək üçün izn istəyirdilər. Disney öz qəhrəmanlarını təkcə ekrandan deyil, daha yaxından tanıtmaq üçün Kaliforniyada "*Disney land", Floridada "Disney World"* kimi əyləncə parklarını açır.

Bu hekayə yoxsulluq və iztirab içərisində uşaqlıq çağını yaşayan Uolt Disneyin hekayəsi idi. Uşaq ikən sevinməyə, şadlanmağa heç bir şeyi olmayan bu adam neçə-neçə uşağın çöhrəsinə gülüş bəxş etmişdi və bu əziyyətinin bəhrəsi olaraq 29 Oskar mükafatına layiq görülmüşdür.

Disney səs effektli cizgi filmini sevinclə qarşılayır və musiqi, təbii səs effektini cizgi filminə əlavə etməkdə birinci olur.

Kino-rejissor Alfred Hitçkok bir dəfə həsədlə "Disney bəyənmədiyi aktyorları sadəcə cəkdiyi rəsmlərini cıraraq məhv edə bilir" demişdir.

1) **Uolt Disney kimdir?**

___________________________________________

2) **Onun hansı cizgi filmlərinə baxmısınız?**

___________________________________________

3) **İlk dəfə dünyada Uolt Disney tərəfindən yaradılan rəngli cizgi filmi hansıdır?**
   **a Üç donuz balası**
   b Mauqli
   c.Cindirella

4) **Mikki Maus personajı xoşunuza gəlirmi?**
   **a hə**
   **b yox**

**5) Mauqli cizgi filmi hansı əsər əsasında çəkilmişdir?**
a) Zoluşka
**b) Cəngəllik kitabı**
c) Ağbəniz yeddi cırtdan

**6)Mauqli Cizgi filmi hansı yazıçının əsəri əsasında hazırlanmışdır?**
Qrimm qardaşları - Cindirella

**Redyard Kiplinqin - Cəngəllik kitabı**
**Şarl Pero – Çəkməli pişik**

**7) Uolt Disney filmlərinə görə necə dəfə Oskar mükafatı almışdır?**
**a )** 15
**b ) 29**
c ) 25

**8) Disneyin "Qnomların yeni mənzili" adlı nağılı nədən bəhs edir?**

______________________________________________

**9) Cindirella cizgi filmi hansı əsərin qəhrəmanı əsasında cəkilib?**
a) Ağca xanım və dovşanlar
**b) Qrimm qardaşları Zoluşka**
c) Mauqli

**10) Məşhur Disneyland parkı haqqında nə bilirsiniz?**

_____________________________________________

# Oyun

**“Qnomların yeni mənzili”** nağılı əsasında “Nağıl qəhrəmanlarını özümüz yaradaq” adlı oyun təşkil edə bilərik. Nağılda qnomların öz yeni mənzillərinə köçüb bayram etmələrindən danışılır. Uşaqlar SD diskdə nağılı dinləməklə və ya kitabxanaçı həmin nağılı oxumaqla tanış olurlar. Oyunda plastilinlərdən uşaqlar bu nağıl personajlarını-qnomları öz fikirləşdikləri kimi hazırlamağa başlayırlar. Bunlar Professor; Deyingən; Güləyən; Utancaq; Həpçi; Yatağan və Laldinməzdir.

Onlar bir gün öz aralarında fikirləşirlər ki, yeni mənzilə köçsünlər. Professorun sayəsində yeni mənzillə köçən qnomların yeni mənzillərində, onların hər birinin öz çarpayısı, mətbəxi vardır. Yeni mənzil onların çox xoşuna gəlir. Hələ yeni mənzildə belə bir qayda-qanunda vardır: Heç kim əl-üzünü yumamış nahar süfrəsinə otura bilməz. Yeni mənzillərinə köçən qnomlar bunu bayram etmək fikrinə düşürlər. İlk öncə evi səliqəyə salan qnomlardan Həpçi dayanmadan asqırırdı. Yatağan isə öz çarpayısında uzanıb yatmışdı. Güləyən isə gözəl aşpaz idi. Dayanmadan zarafat edirdi gülsədə çox ləzzətli yeməklər hazırlamışdı. Utancaq isə uzun müddət hansı işi görəcəyi qərarını verə bilməmişdi. Yaxşı yemək bişirsədə, utancaqlığından bu bacarığını deyə bilmirdi. Nəhayət o da ləzzətli yeməklər hazırlamağa başlayır. Artıq nahar süfrəsində hər şey hazır idi. İlk öncə yaxşıca əl-üzlərini sabunları ilə yuyan qnomlar bundan xoşlanırlar. Xüsusi ilə Laldinməzə bu çox xoş gəlir. Təzə və gözəl evdə hər şey öz yerində idi. Süfrəni yığdıqdan sonra əylənmək üçün Deyngən musiqi alətində ifa edir. Onlar günlərini təzə evlərində beləcə şad - xürrəm qeyd edirlər.

# “Disney və onun nağıl qəhrəmanları” adlı sərgi:

***Uolt Disneyin müraciət etdiyi müəlliflərin əsərlərini toplayıb buklet, sərgi, slaydlar hazırlaya bilərik.***
***Bu sərgidə uşaqlar Disneyin yaratdığı personajları deyil, həm də onları yazan müəlliflərlə də tanış ola bilərlər.***



## *Cindirella*

“Yatan Gözəl” və “Sinderella” cizgi filmləri uşaqlar üçün zəmanəmizin ən yaxşı filmlər siyahısına daxildir.
Sindirella və ya “Zoluşka” — Şarl Pero, Qrim qardaşları və Pentameronun versialari ilə məşhurlaşan qərbi avropa nağılıdır. Bu dünyada ən məşhur “gəzən süjet” olub, minlərlə xalqların folkloruna öz töhvəsini vermişdir.

Bu nağılın ən qədim versiyası hələ qədim misir papiruslarında aşkar edilmişdir. Əsərin əsas qəhrəmanı Yunanıstanda doğulmuş, Rodopis adlı bir qızcığazdır. Əfsanəyə görə onu dəniz quldurıarı oğurlayaraq Misirə gətirirlər və burada kölə kimi satırlar.

# Ağbəniz və Yeddi Cırtdan



İlk dəfə 1812-ci ildə alman Qrimm qardaşları tərəfindən toplanmış və çap edilmiş olan bir xalq nağılıdır. Nağıl pis qəlbli və qısqanc ögey anası tərəfindən ondan daha gözəl olduğu üçün öldürülmək üzrə meşəyə göndərilən və meşədə cırtdanlarla birlikdə yaşamağa başlayan bir şahzadənin macəralarından bəhs edir. Bir neçə dəfə teatra və kinoya uyğunlaşdırılmışdır. Hekayənin və baş qəhrəmanın ilk çapındakı almanca adı Sneewittchendir.

# MAUQLİ – Cəngəllik kitabı




1967-ci ildə istehsal olunmuş cizgi filmidir. “Cəngəllik kitabı” cizgi filmi “Walt Disney Pictures” studiyası tərəfindən istehsal edilmiş Disneyin 19-cu klassik qısametrajlı cizgi filmidir. Cizgi filminin rejissoru Volfqanq Reyterman, prodüseri isə Uolt Disneydir. Uolt Disney cizgi filminin istehsalı ərəfəsindəykən 1966-cı ildə vəfat etmişdir. Cizgi filmi ingilis yazıçısı Redyard Kiplinqin “Cəngəllik kitabı” və “Cunqlinin ikinci kitabı” əsasında hazırlanmışdır. Cizgi filminin 1994-cü ildə Cəngəllik kitabı remeyk filmi, 2003-cü ildə davamı olan “Cəngəllik kitabı 2” cizgi filmi çəkilmişdir.

# Ədəbi-Bədii gecə

## "Kamillik və xöşbəxtlik məkanı" adlı disneyland dünyasına səyahət

**"Bizim bu xoşbəxt məkana Xoş Gəlmisiniz! Disneyland sizin ölkənizdir. Burada kamillik yenidən keçmişin ən əziz xatirələrini yaşayır, cavanlıq isə gələcəyin vədləri və çağırışlarından həzz alır. Disneyland yaranmış ideallara, arzu və real faktlara həsr olunub, ümid edirik ki, bu dünya üçün sevinc və ilham mənbəyi olacaq.**

Ədəbi-bədii gecə təşkil edilən zal Disneylandın şəkilləri ilə bəzədilir, zalda ***"Kamillik və xoşbəxtlik məkanı", "Disneyland dünyasına səyahət", "Dünyanın ən xoşbəxt yeri"*** başlıqlı foto sərgilər təşkil edilir. Məşhur Disneylandı tərrənnüm edən video çarx nümayiş edilir.

**aparıcı:** Bu tədbiri hazırlamaqda məqsədimiz uşaqların sevimlisi, cizgi filmlərinin yaradıcısı kimi tanıdığımız Uolt Disneyin yaratdığı məşhur "Disneylanda" sizinlə birgə səyahət etməkdir. İlk öncə bu nəhəng cizgi filmi ustası ilə tanış olaq:

**aparıcı:** Bu il 115 illik yubileyi qeyd edilən Disney çox kasıb bir ailədə dünyaya göz açsada böyük zəhməti hesabına uşaqların sevimlisinə çevrilmişdir. Yaratdığı ***"Walt Disney Pictures"*** şirkəti bu gün də bütün nəsillər üçün əsas film mənbəyi hesab edilməkdədir. İşində çoxlu çətinliklərlə qarşılaşan rejissor ilk öncə Kanzas Siti şəhərində karikatura rəssamı işləyərəkən dostu ilə bir yerdə özünün məşhur qəhrəmanlarının hazırlanması ilə məşğul olmuş, rəsm karikaturaları çəkərək "Gülməyin qramı" adlı filmini yaratmışdır. Böyük zəhmətdən sonra yaratdığı qısa metrajlı cizgi filmi, ilk dəfə olaraq ekrana çıxan tam mətnli cizgi filmi idi. Təşkil etdiyi məşhur *"Disneyland"* parkı isə dünyanın ən şirin bir möcüzəsidir. Sanki bir nağıllar diyarıdır.

aparıcı: Sehrbaz Uolt Disneyin ən böyük arzusu olan bu nağıllar diyarının gerçəkləşməsi 17 iyul 1955-ci ildə Disneyland Resortun qonaqpərvər qapılarını açmaqla reallaşır. 17 iyul 1955-ci ildə amerikan *“multiplikasiya kralı”* və uğurlu biznesmen Uolt Disney uşaqlar və valideynləri üçün möhtəşəm əyləncə parkının təntənəli açılış mərasimini keçirir. Parkın açılış mərasimini ABŞ-ın gələcək prezidenti aktyor Ronald Reyqan aparır.

aparıcı: Parkın yaradılmasına ürəyini qoymuş rəssam Parkın işində özünün və parkın bütün yaradıcılarının fantaziyasından istifadə etmişdir. Mikki-Maus və onun dostlarının, yaşadığı cizgi filmlərinin və nağılların sehrli dünyası qəhrəmanları parkın divarlarında öz əksini tapmışdı. Bu tamamilə orijinal və bənzəri olmayan, dörd əsas prinsip üzərində yaradılmış park idi:

aparıcı: İlk öncə Uolt Disneyin cizgi filmlərinin sehrli krallığını yenidən qurmaq.

aparıcı: Daha sonra cürbəcür və yeni texniki tryukların əlavə olunması ilə, ziyarətçilərdə elə təəssüratlar yaratmaq ki, sanki onlar cəngəlliklər arasında üzür.

aparıcı: Üçüncüsü isə qarşılarında ruhlar görürlər.

aparıcı: Sonuncu məqsəd sanki dənizin dibində sualtı gəmidə oturublar.

aparıcı: Ilk əvvəl attraksionların sayı 16- ya, giriş bileti isə 1 dollara bərabər olan Disneylanddə hazırda olduğu kimi ziyarətçiləri girişdə Mikki-Maus, Ağbəniz və Yatmış Gözəl qarşılayırdı. Daha sonralar onların sırasına Disneyin cizgi filmi qəhrəmanlarından olan Pinokkio və Vinni-Pux da qatıldı. Disneyland tez bir zamanda ABŞ-ın görməli yerlərindən birinə və ailəvi istirahət üçün sevimli məkana çevrildi.

aparıcı: Əbəs yerə Disneylandı dünyanın ən xoşbəxt yeri saymırlar. Burada qonaqları Uolt Disneyin: “*Bizim bu*

*xoşbəxt məkana Xoş Gəlmisiniz! Disneyland sizin ölkənizdir. Burada kamillik yenidən keçmişin ən əziz xatirələrini yaşayır, cavanlıq isə gələcəyin vədləri və çağırışlarından həzz alır. Disneyland Amerikanı yaratmış ideallara, arzu və real faktlara həsr olunub, ümid edirik ki, bu dünya üçün sevinc və ilham mənbəyi olacaq” səsi salamlayır.*

aparıcı: Park üç hissəyə bölünüb. Birinci zona – simvolu Yatmış Gözəlin Qəsri olan Disneyland Parkının özüdür.

aparıcı: İkinci zona – 2001-ci ildə açılmış “Disney’s California Adventure Park tematik parkıdır, bu sahə Qızıl Ştatın tarixinə və mədəniyyətinə həsr olunmuşdur və simvolu Kaliforniya canlı təbiətinin rəmzi olan qrizli ayısının siluetini xatırladan süni Grizzly Peak dağıdır.

aparıcı: Eyni anda Disney’s California Adventure ilə birlikdə üçüncü zona – Downtown Disney yaradıldı. Bu kompleks bir çox attraksiondan, teatr, 12 zallı kinoteatr, mağaza, restoran, bar və oyun əşyalarında ibarətdir.

Grizzly Peak (Qrizli Zirvəsi) - Kaliforniyanın rəmzi

Disneyland Resort-un qonaqları Disney studiyasının sevimli animasiya və bədii filmlərinin əsl qəhrəmanları ilə ünsiyyətdə ola və fantastik attraksionlarda əylənə bilərlər. Parkda gündəlik paradlar və ataşfəşanlıq təşkil edilir. Disneylandin küçələrində orkestrin müşayiəti ilə Mikki-Maus və Donald Dak digər cizgi filmi qəhrəmanları ilə birlikdə gəzirlər.

aparıcı: Parkda hər yerdə monorels, parovoz, fayton və ya funikulyor tapmaq olar. Funikulyordan parkın ərazisinə gözəl mənzərə açılır. Disneylandin yaranmasından bu yana onu 500 milyon qonaq, o cümlədən kral ailəsi, prezidentlər və dövlətin digər rəsmiləri ziyarət edib.

aparıcı: Disney parklar şəbəkəsi bu günlərdə də genişlənmişdir, Anahaym şəhərində yerləşən ilk

Disneylanddan başqa Florida ştatında (ABŞ) Disneyworld, Parisdə (Fransa) Avro-Disneyland, Tokio-Disneyland (Yaponiya) və Honqkonqda (Çin) Disneyland fəaliyyət göstərir.

*(Adları çəkilən ölkələrin Disneylandlari haqqında ayrıca məlumt verilir monitorda).*

aparıcı:Uolt Disney özündən sonra getdikcə daha da şöhrətlənən və ildə 22 milyard dollar gəlir gətirən dünyanın ən müvəffəqiyyətli əyləncə konqlomeratını qoyur.
Bu gün Walt Disney Pictures şirkəti filmsevərlərin bütün nəsilləri üçün əsas film mənbəyi hesab edilməkdədir.
Uolt Disneyin kim olduğu və onun multiplikasiyanın inkişafı üçün nələr etdiyi barədə uzun-uzun danışmaq olar.
aparıcı:Cizgi filmləri istehsalında ixtisaslaşan The Walt Disney mediaimperiyası 1926-cı ildən mövcuddur. Disneyin işlərinin əhəmiyyəti barədə 26 “Oskar” da daxil olmaqla, çoxsaylı mükafatlar artıq hər şeyi deyir.

(*Cizgi filmindən səslənən mahnı* )

aparıcı:Əgər dünyada haradasa cizgi filmi planeti varsa, Disney burada böyük bir qitədir. Bu qitədə sehrbazlar, xeyirxah heyvanlar, cəsur və gözəl şahzadələr yaşayır. Bu nağıl dünyasını isə sonsuzadək araşdırmaq olar.

SON

# Ədəbiyyat siyahısı:

## Azərbaycan dilində:

Disney U. Qnomların yeni mənzili // Nağıla bax, nağıla: I hissə.- S.24-26. - Bakı, 2012.

## İnternetdə

https://ru.wikipedia.org/wiki
http://www.disneylandparis.ru
https://az.wikipedia.org

## Rus dilində

Волшебный мир Диснея [Электронный ресурс] :
Волшебный мир Диснея [Электронный ресурс] :

Дисней У. Питер Пэн в Нетландии: Сказки. - М.: Эгмонт Россия Лтд, 2003. - 80 с.

Дисней У. Книга джунглей: художественная литература. - Эгмонт Россия Лтд, 2002. - 80 с.

Дисней У. Похождения императора: художественная лит-ра. - М.: Эгмонт Россия Лтд, 2002. - 80 с.

Дисней У. Похождения императора: художественная лит-ра . - М. : Эгмонт Россия Лтд, 2002. - 80 с.

Дисней У. Планета Сокровищ: Рассказы. - М.: Эгмонт, 2002. - 80 с.

Дисней У. Планета Сокровищ: Рассказы. - М.: Эгмонт, 2002. - 80 с.

Дисней У. Книга Джунглей 2: художественная литература. - М.: Эгмонт Россия Лтд, 2003. - 80 с.

Дисней У. Спящая красавица: Сказки: Эгмонт Россия Лтд, 2003. - 80 с.

Дисней У. Дамбо: художественная литература; - М.: Эгмонт Россия Лтд, 2002. - 80 с.

Дисней У. Не Бей копытом: художественная лит-ра; - М. : Эгмонт Россия Лтд, 2004. - 96 с.

Дисней У. 102 Далматинца: художественная лит-ра. - М.: Эгмонт Россия Лтд, 2001. - 80 с.
Учим английский с героями Диснея. Дом, милый дом: книжка с наклейками: Академия Смартбук, 2006. - 32 с
Учим английский с героями Диснея. Животные: научно-популярная литература.: Академия Смартбук, 2007. - 32 с.
Учим английский с героями Диснея. Игры и игрушки: научное издание. - Ярославль: Академия Смартбук, 2007. - 32 с
Учим английский с героями Диснея. Всё о погоде: научно-популярная литература. - Ярославль: Академия Смартбук, 2007. - 32 с.
Учим английский с героями Диснея. В городе: научно-популярная литература. - Ярославль: Академия Смартбук, 2006. - 32 с.
Учим английский с героями Диснея. Каникулы: научно-популярная литература. - Ярославль: Академия Смартбук, 2006. - 32 с.
Учим английский с героями Диснея. Мой дом: научно-популярная литература. - Ярославль: Академия Смартбук, 2006. - 32 с.
Учим английский с героями Диснея. Скоро в школу!: научно-популярная литература. - Ярославль: Академия Смартбук, 2007. - 32 с
Учим английский с героями Диснея. Приятного аппетита!: научно-популярная литература. - Ярославль: Академия Смартбук, 2006. - 32 с.

**Disney və onun dostları: Vəsait bu il yubileyi qeyd olunan Uolt Disney haqqındadır. Uolt Disneyin 115 illiyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Kompyuter yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:23.05.2016
Tirajı:100
Pulsuz